# AZƏRBAYCAN TARİXİNƏ İŞIQ SALAN DAHİ ŞƏXSİYYƏT

**Xəlil İsmayılov**
*Əməkdar mədəniyyət işçisi,*
*BMT yanında Beynəlxalq İnformasiyalaşdırma Akademiyasının*
*həqiq üzvü, tarix üzrə elmlər doktoru, professor*
*X.ismail@mail.ru*

Ümummilli lider Heydər Əliyev Azərbaycan xalqının həyatında müstəsna xidmətlərə malik olan şəxsiyyətdir. O, Azərbaycan xalqınının siyasi-iqtisadi eyni zamanda mədəni və mənəvi həyatındakı əvəzolunmaz işləri ilə Azərbaycan tarixinə qızıl hərflərlə həkk olunmuşdur. O, dövlət və dövlətçiliyin yaşaması, dərinləşməsi üçün mənəvi və mədəni sahələrin nə dərəcədə böyük önəmə malik olduğunu çox yaxşı anlamış və zamanında gərəkli olan hər bir addımı, fəaliyyəti həyata keçirmişdir. “Azərbaycan Respublikasında 2023-cü ilin “Heydər Əliyev İli” elan edilməsi ilə bağlı Tədbirlər Planı”nın təsdiq edilməsi haqqında Sərəncama əsasən Azərbaycan Respublikası Konstitusiyasının 109-cu maddəsinin 32-ci bəndini rəhbər tutaraq, “Azərbaycan Respublikasında 2023-cü ilin “Heydər Əliyev İli” elan edilməsi haqqında” Azərbaycan Respublikası Prezidenti 2022-ci il 29 sentyabr tarixli 3494 nömrəli Sərəncam imzalamışdır. Həmin Sərəncama uyğun olaraq: “Azərbaycan Respublikasında 2023-cü ilin “Heydər Əliyev İli” elan edilməsi ilə bağlı Tədbirlər Planı” təsdiq edilmişdir. Burada qeyd edilirdi ki, həmin *“Sərəncamın 1-ci hissəsi ilə təsdiq edilən Tədbirlər Planında nəzərdə tutulmuş tədbirlərin əlaqələndirilməsini və icrasına nəzarəti Azərbaycan Respublikası Prezidentinin Administrasiyası həyata keçirsin. Azərbaycan Respublikasının Nazirlər Kabineti bu Sərəncamdan irəli gələn məsələləri həll etsin”*

Azərbaycan tarixinin bütöv bir epoxası ümummilli liderimiz Heydər Əliyevin adı ilə bağlıdır. Ölkəmizin çoxəsrlik tarixində özünün müstəsna əhəmiyyəti, sanballı, xalqımızın nəinki bugünkü, həm də gələcək taleyinin müəyyənləşdirilməsi baxımından Heydər Əliyev xidmətləri bənzərsizdir. Taleyüklü hadisələrlə yadda qalan, Azərbaycanın milli intibahı kimi səciyyələnən, müstəqillik tariximizə qızıl hərflərlə əbədi həkk olunan bu dövr ulu öndərimiz, dünya səviyyəli dövlət başçısı və ictimai-siyasi xadim Heydər Əliyevin adı və fəaliyyəti ilə bağlıdır.

Azərbaycan xalqının ümummilli lideri, görkəmli dövlət xadimi Heydər Əliyevin çoxillik ictimai-siyasi fəaliyyəti böyük bir dövrü əhatə edir. Sovet rejiminin inkişafda olan dövrü (1969-1986), mürəkkəb keçid prosesləri (1987-1990), Azərbaycanın dövlət müstəqilliyi mərhələsi (1991-2003) kimi səciyyələnən 35 illik bir epoxanın aparıcı şəxsiyyətlərindən, əsas simalarından olan Heydər Əliyevin böyük siyasətdə keçdiyi çətin və şərəfli yol, sərt və mürəkkəb məqamlar-

da onun tutduğu obyektiv və qəti mövqe, atdığı düşünülmüş addımlar, əldə etdiyi ciddi və mühüm nəticələr, əslində, çox mənalı və ibrətamiz bir hadisədir.

Hər bir xalq öz tarixi şəxsiyyətləri ilə fəxr edir, onların yaratdığı irsə böyük ehtiramla yanaşır. Müasir Azərbaycan dövlətinin memarı və qurucusu, xalqının və dövlətinin müstəqilliyi, inkişafı naminə çox böyük işlər görmüş, bununla bağlı tarixi proseslərə təsir göstərmiş Heydər Əliyev hər zaman iftixar hissi ilə xatırlayacağımız dahi şəxsiyyətdir. Azərbaycana rəhbərlik etdiyi ilk günlərdən etibarən mənsub olduğu xalqın tükənməz yaradıcılıq enerjisinin, milli müstəqillik duyğularının reallaşmasına çalışan Ümummilli Lider Heydər Əliyev xalqımızı dünyanın ən inkişaf etmiş xalqları səviyyəsinə çatdırmaq üçün əlindən gələni əsirgəməmişdir. Heydər Əliyev 1969-cu ildə respublika rəhbərliyinə gələrkən sosial-iqtisadi böhran keçirən Azərbaycanı keçmiş İttifaqın ən qabaqcıl respublikalarından biri səviyyəsinə qaldırmışdır.

Ümummili Lider Heydər Əliyev ölkədə iqtisadiyyatın, sənayenin, kənd təsərrüfatının bütün sahələrinin inkişafına daim diqqət və qayğı ilə yanaşmışdır. Ulu öndər Heydər Əliyevin bilavasitə rəhbərliyi ilə hazırlanmış iqtisadi inkişaf konsepsiyasının 1982-1985-ci illərdə respublikada müvəfəqiyyətlə yerinə yetirilməsi Azərbaycanın inkişaf imkanlarını daha da genişləndirdi. Fərəhlə qeyd etmək lazımdır ki, cəmi 10 il ərzində Azərbaycanda pambıq istehsal 333.6 min tondan 831.2 min tona çatdırılmışdır. Ulu öndər hakimiyyətdə olduğu illərdə respublikada yüzlərlə yeni müəssisə, istehsalat sahələri yaradılmış, iri elektron, elektrotexnika, radiotexnika, cihazqayırma sənayesi zavodları inşa edilmişdir. Heydər Əliyev ölkə rəhbərliyində yüksək vəzifədə çalışarkən öz iti zəkası, yüksək erudisiyası, siyasi uzaqgörənliyi, yorulmaz fəaliyyəti ilə daim diqqət mərkəzində idi.

Xalqın təkidi ilə Ümummilli lider Heydər Əliyev ikinci dəfə hakimiyyətə gəldikdən sonra onun adı qarşısına çoxsaylı epitetlərdən daha biri əlavə edildi: Xilaskar Heydər Əliyev. Onun barəsində dünyanın çox məşhur adamları yüksək fikirlər söyləyiblər. Türk dünyasının tanınmış simalarından biri olan Oljas Süleymanov demişdir ki, *"Mən əminəm ki, əgər 80-cı illərin axırları 90-cı illərin əvvəllərində Heydər Əliyev Azərbaycanda rəhbərliyi davam etdirsəydi nə Ermənistan-Azərbaycan münaqişəsinə, nə də Sumqayıt hadisələrinə yol verilməzdi".*

Xalqın tələbi ilə ikinci dəfə-1993-cü il oktyabrın 3-də ümumxalq səsverməsi nəticəsində Heydər Əliyev Azərbaycan Respublikasının Prezidenti seçilib. Bu dövrdə ölkəmizdə təhsil sahəsinə də xüsusi diqqət və qayğı göstərilmişdir. Bu da danılmaz faktdır ki, ulu öndər Heydər Əliyevin təhsil siyasəti konsepsiyasına əsasən ali məktəblərimizin əksəriyyətində təhsil alan gənclərin elmi-tədqiqat işlərinə cəlb olunması üçün, demək olar ki, lazımi şərait yaradılmışdır. Son dövrlər hər il tələbələrin müxtəlif fənlər üzrə respublika olimpiadaları, konfranslar, aspirantların və gənc tədqiqatçıların respublika simpoziumları, müsabiqələr keçirilir ki, bu da elmə, elmi tədqiqatlara olan marağı daha da artırır. Eyni zamanda, araşdırmalardan aydın olur ki, 1998-ci ildən bu günə qədər elmi-tədqiqat müəssisələrinin və ali məktəblərin 1500-dən artıq əməkdaşı



müxtəlif ölkələrdə – ABŞ, Böyük Britaniya, Polşa, Rusiya, Türkiyə, Almaniya, Yunanıstan və başqa ölkələrdə yaradıcı ezamiyyətlərdə olmuş, Azərbaycan elmini yüksək səviyyədə təmsil etmişlər. Nəzərə alsaq ki, istənilən sahədə, o cümlədən elmdə sürətli inkişafın başlıca amillərindən biri də çevik inteqrasiya və beynəlxalq əməkdaşlıqdır, onda yuxarıda qeyd edilənlər də Azərbaycan elminin inkişafı istiqamətində atılmış mühüm addım kimi qəbul edilə bilər. Ulu öndər təhsilin dünya standartlarına uyğun inkişafı, müəllimlərin, elm adamlarının əməkhaqlarının artırılması, ali məktəb şəbəkəsinin genişləndirilməsi ilə bağlı onlarla tarixi əhəmiyyətli fərman və sərəncamlar, islahat və dövlət proqramlarını təsdiq edən sənədlər imzalamışdır ki, bunlar da birbaşa elmdə və təhsildə problemlərin həllinə yönəlmişdir.

Ulu öndər Heydər Əliyevin Konstitusiyanın hazırlanmasında, qəbul edilməsində gərgin liderlik əməyi və töhfəsi danılmazdır. Konstitusiyanın qəbulu dövlətçiliyimizin möhkəmləndirilməsi, Azərbaycanın dünya birliyində nüfuzunun daha da artması baxımından çox mühüm ictimai-siyasi hadisə kimi qiymətləndirilməlidir.

Konstitusiyanın qəbulu yalnız yeni ictimai sistemin hüquqi tanınmasını təsdiq edən fakt deyil, ölkəmizin inkişafının prinsipcə yeni mərhələyə qədəm qoymasının göstəricisi idi. Bu mərhələ isə ilk növbədə siyasi sistemin mərkəzində insanın və vətəndaşın, onun hüquq və azadlıqlarının, demokratik və hüquqi dövlət ideallarının durması ilə səciyyələnir. Həmçinin onu da qeyd edək ki, Ulu öndər Heydər Əliyevin hakimiyyətə gəldiyi ilk illərdə korrupsiyaya qarşı mübarizə üzrə komissiya və Baş prokuror yanında Korrupsiyaya Qarşı Mübarizə Baş İdarəsi kimi ixtisaslaşdırılmış qurumlar yaradılıb. Bütün bunlar da həmin dövürdə ölkədə siyasi sabitliyin bərqərar edilməsində mühüm rol oynayan başlıca faktorlardan biridir.

Ümummilli Lider Heydər Əliyevin Milli Kitabxanaya münasibəti, həmişə onu diqqət mərkəzində saxlaması müstəqillik illərində kitabxananın işində böyük dönüş yaratmışdı. Belə ki, onun öz şəxsi kitabxanasından 300 nüsxəyədək qiymətli kitabı Milli Kitabxanaya hədiyyə etməsi və eləcə də Milli Kitabxananın fonduna xarici dillərdə yeni ədəbiyyat almaq məqsədilə hər il 5000 ABŞ dolları həcmində əlavə vəsait ayrılması barədə Baş nazirə göstəriş verməsi buna bariz nümunədir. Ulu öndərin hədiyyə etdiyi kitablar Milli Kitabxananın ən qiymətli kolleksiyası kimi Nadir kitablar və kitabxana muzeyi şöbəsində mühafizə və nümayiş olunur. Kitabxanaya gələn yerli və xarici qonaqlar bu qiymətli kolleksiya ilə böyük maraqla tanış olurlar. Belə ki, O, dəfələrlə M.F.Axundov adına milli kitabxanada olmuş və bir sıra möhtəbər tədbirlərin milli kitabxanada keçirilməsini məsləhət bilmişdir. H.Əliyevin 1995-ci ildə iyun ayında M.F.Axundov adına milli kitabxanada miniatur kitabların təqdimat mərasimində, həmin kitabların sərgisinə baxarkən kitabxana haqqında dəyərli çıxış etmişdir. Bütün bu qeyd edilən məsələlər ölkəmizdə kitabxana sahəsinə də xüsusi diqqət və qayğının göstərilməsinə bariz nümunədir.

Beləliklə, ümummilli lider Heydər Əliyevin ölkəmizə rəhbərlik etdiyi 1993-2003-cü illərdə müstəqil dövlətimizin tərəqqisi üçün möhkəm təməl yaradılmışdır. Bu dahi insan var qüvvəsi və bacarığını Azərbaycanımızın inkişafına və böyük zirvələri qət etməsinə sərf etmişdir. Ulu öndər öz həyatının uğurlarını xalqına arxalanmaqda görərək demişdir: "Mənim həyat amalım bütün varlığım qədər sevdiyim Azərbaycan xalqına, dövlətçiliyimizə, ölkəmizin iqtisadi-siyasi, mənəvi inkişafına xidmət edir. Bu yolda bütün gücümü və iradəmi yalnız müdrik və qədirbilən xalqımdan almışam".

Bütün sahələrdə olduğu kimi, Azərbaycan elminin də inkişafı istiqamətində ümummilli lider Heydər Əliyevin siyasəti bu gün islahatların zəruriliyinə ciddi diqqət yetirən, layiqli davamçı ölkə başçısı cənab İlham Əliyev tərəfindən uğurla davam etdirilir. Günümüzün reallıqları sübut edir ki, hazırda ölkə Prezidenti cənab İlham Əliyev tərəfindən bu istiqamətdə aparılan işlər Azərbaycan xalqının xoş gələcəyinə xidmət edəcək səviyyədə uğurla davam etdirilir. Müasir dövrümüzdə də təhsil sahəsinə diqqət ardıcıl və müntəzəm xarakter daşımaqdadır. "Təhsil haqqında Qanun" un qəbul edilməsi, təhsil sistemində islahatların aparılması, ən mütərəqqi texnologiyaların tətbiqi, müəllimlərin əmək haqlarının müntəzəm olaraq artırılması, onların pedaqoji biliyinin yüksəldilməsi bu sahənin dünya səviyyəsinə çatdırılmasına imkan verir.

Xüsusilə onu qeyd etmək lazımdır ki, 44 günlük vətən müharibəsi nəticəsində Ulu öndər Heydər Əliyevin layiqli davamçısı cənab Prezident İlham Əliyevin səyi, rəşadətli ordumuzun gücü sayəsində torpaqlarımız işğaldan azad edilmişdir. 44 gün davam edən Vətən müharibəsi Ermənistanın kapitulyasiyası, təxminən, otuz il davam edən işğala son qoyulması və ərazi bütövlüyümüzün bərpası ilə nəticələndi. Azərbaycan xalqı buna layiq idi və biz qələbə əldə edərək düşməni öz doğma diyarımızdan qovduq, şəhərlərimizi azad etdik.

***Rəyçi:*** *t.ü.f.dok., dos.* ***S.A.Xələfova***